**UOT 792**
**ORCID: 0009-0009-6262-7312**
**DOI 10.52094/QGOE7622**

**Fidan Rzayeva Vasif qızı**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**Dissertant**
fidanqasimova1881@gmail.com

# REJİSSOR YUSİF YULDUZ YARADICILIĞININ DÖVLƏT TÜRK AKADEMİK DRAM TEATROSU və AZƏRBAYCAN DÖVLƏT DRAM TEATRI DÖVRÜ

**Xülasə:** 1920-ci illərdə Azərbaycan teatrında milli peşəkar rejissor kadrlarının yoxluğu bu sahəyə xüsusi diqqət tələb edirdi. Belə bir vaxtda Leninqrad Teatr Sənəti İnstitutunda təhsil alıb ilk milli peşəkar rejissor kimi 1927-ci ildə Milli Dram Teatrında fəaliyyətə başlayan Yusif Yulduzun (1905-1979) yaradıcılığının 1927-1934-cü illər mərhələsi xüsusi əhəmiyyət daşıyır. Onun Akademik teatrdakı quruluşları göstərir ki, rejissor aktyorla iş prinsipi, səhnə traktovkası, mizan quruluşu və işıq həlləri baxımından dövrü üçün yeni yaradıcılıq axtarışlarına müraciət etmişdir. Xüsusilə, Ə.Haqverdiyevin "Köhnə dudman" və "Baba yurdunda" əsərlərində rejissorun realist-psixoloji yanaşma ilə romantik-monumental səhnə tərtibatını birləşdirməyə çalışdığı müşahidə olunur.

Aktyor xatirələri və dövrün resenziyaları da təsdiq edir ki, Y.Yulduz aktyorun daxili yaradıcılıq imkanlarını ön plana çəkən iş metoduna üstünlük verirdi. Onun Milli Dram Teatrındakı qısa müddətli fəaliyyəti Azərbaycan teatrında milli rejissor düşüncəsinin formalaşmasına və rejissor sənətinin inkişafına mühüm təsir göstərmişdir. Bu baxımdan Y.Yulduzun yaradıcılığı Azərbaycan teatr tarixində keçid mərhələsinin mühüm istiqamətləndirici hadisələrindən biri kimi qiymətləndirilə bilər.

**Açar sözlər:** Yusif Yulduz, teatr, rejissor, aktyor, tamaşa.

**Giriş:** Azərbaycan teatr salnaməsinə nəzər yetirsək 1920-ci illərdə milli peşəkar kadrlar olmadığından afişalarda daha çox rusiyalı rejissorların adlarına rast gələrik. Həmin illərdə Azərbaycan teatrının repertuarının əsasını A.Tuqanov, A.İvanov, S.Mayorov, D.Qutman, V.Lyutse, A.Qripiç, L.Daşkovski, B.Velikanov, P.Rudin, A.Ridal və başqa rejissorların qoyduğu tamaşalar təşkil edirdi. Milli rejissor sənətində yaranan boşluğu A.M.Şərifzadə, S.Ruhulla, Ə.H.Rzayev, Ə.A.Əliyev, R.Təhmasib, R.Darablı və başqa aktyorlar

doldurmağa çalışsalar da onların rejissor kimi qeyri-peşəkarlığı öz sözünü deyirdi. 1923-cü ildə Bakıda Teatr Texnikumu açılmasına baxmayaraq, burada rejissorluq ixtisasının olmaması da bu sahədə peşəkar kadrlara ehtiyacı aktuallaşdırırdı. Teatrın aqibətindən ciddi narahat olan mədəniyyət xadimləri və rəhbərlər ixtisaslı milli kadrların yetişməsini zəruri hesab edir və gəncləri müxtəlif teatr ixtisasları üzrə təhsil almaq üçün Moskva və Leninqrada (Sankt-Peterburq) göndərirdilər. Belə bir zamanda, Azərbaycan teatrının formalaşdığı və yeni yaradıcılıq axtarışlarının gücləndiyi bir dövrdə Yusif Yulduzun (1905-1979) Leninqaradda rejissor təhsili alaraq Bakıya qayıtması (1927) milli rejissor kadrlarının yaranması yolunda ilk addım, təkan, hətta yeni bir mərhələnin başlanğıcına çevrildi. Lakin bu yolun genişlənməsi, formalaşdırılması üçün əlbəttə hələ çox iş görmək lazım idi.

**Əsas hissə:** 1927-ci il teatr mövsümünün açılışı münasibətilə dövri mətbuatda ənənəvi olaraq yeni tamaşalar, aktyor və rejissor heyəti haqqında məlumatlar dərc olunurdu. Həmin mövsümün diqqətçəkən cəhətlərindən biri isə rejissorlar sırasında yeni və gənc bir adın – Yusif Yulduzun (Əliyev Yusif Seyfulla oğlu) yer alması idi. 1925-1927-ci illərdə Peterburq Səhnə Sənəti Məktəbində Sergey Pavlovun rejissorluq sinfində təhsil alaraq peşəkarlığın sirlərinə yiyələnən Y.Yulduz Bakıya qayıdaraq elə həmin il Milli Dram Teatrına rejissor təyin olundu. Gənc rejissora Ə.Haqverdiyevin yenicə qələmə aldığı "Köhnə dudman" dramı həvalə edilmişdi. "Ayın *(oktyabrın – F.R.)* 20-də Dram Teatrında yeni mövsüm Ə.Haqverdiyevin "Köhnə dudman" əsəri ilə açılacaqdır. Quruluş Yusif Yulduzundur" (Məmmədli, Q., 1983, s. 244). Gənc rejissorun ilk səhnə təcrübəsinə baxmayaraq hazırladığı tamaşada əsərin ideyasını düzgün, tam aydınlığı ilə çatdırmağa nail olmuşdu. Tamaşa haqqında mətbuatda çıxan resenziyalardan da səhnə əsərinin nə qədər uğurlu alındığını görmək mümkündür.

İlk vaxtlarda gənc rejissorun aktyorla iş prinsipi, bütövlükdə isə tamaşa üzərində iş metodu teatr üçün olduqca yeni idi. Onun masa arxası məşqləri mövcud ənənəvi üsullardan ciddi şəkildə fərqlənirdi. Rejissorun aktyorlara daha geniş yaradıcılıq sərbəstliyi verməsi, obrazın daxili mahiyyətinin müstəqil şəkildə axtarılıb tapılmasına, tərəf-müqabillərlə mübahisə və müzakirələrin aparılmasına, səhnə münasibətlərinin sərbəst şəkildə aydınlaşdırılmasına şərait yaratması dövrün teatr mühitində birmənalı qarşılanmadı. "Deyilənlərə görə, əvvəl Ə.Haqverdiyev əsərin quruluşunun Y.Yulduza verilməsindən narazı imiş. Hətta Pərviz xan rolunun ifaçısı R.Təhmasib ilk məşqlərə gəlmirdi. O vaxt

rejissorlar məşqə qeydlərlə gələr, aktyorlara "ordan çıx", "burda dayan", "belə get" – deyə göstərişlər verərdilər. Y.Yulduz isə məşqə qeydsiz gələr, aktyorları "özbaşına" buraxar, ifa etdikləri surətlər barədə düşünməyə vadar edərdi" (Kərimov, İ., 2002, s.319). Yuxarıdakı qeyd olunanın əksinə teatrşünas Tamilla Təhmasib atası Rza Təhmasibə həsr etdiyi xatirə kitabında İ.Kərimovun bu sətirlərini əhəmiyyətsiz olmayan bir səhv adlandırmış və R.Təhmasibin "Unuda bilmədiklərim" xatiratında yazılan "Mən məşqə müəyyən dərəcədə hazırlıqlı gəlmişdim, rejissorun deyimləri, göstərişləri ilə mənim traktovkam arasında uyğunluq var idi. Əsəri və obrazları, onların arasındakı münasibətləri məşq gedə-gedə təhlil etmək, izah etmək üsulu adətimizin ziddinə olsa da canlı idi. Maraqlı idi, burdaca hər şeyi düzəltmək, yerinə salmaq, müəyyən qədər bərkitmək, mənimsəmək, inanmaq mümkün olurdu" qeydlərinə əsaslanaraq yuxarıdakı fikirləri təkzib etmişdi.

Tamaşanın səhnə həlli prosesində bəlkə də Y.Yulduzun iş prinsipi ilk vaxtlarda dramaturq və aktyor heyətini şübhəyə salmış ola bilər, lakin bir neçə məşqdən sonra onun peşəkarlığı və geniş yaradıcı təxəyyülü rejissor kimi özünü təsdiq etməsinə və aktyor truppasının etimadını qazanmasına imkan verdi. Kollektiv Y.Yulduzun fikirlərini, səhnə yozumunu maraqla qarşılayır, hətta həvəs və sevgi ilə obraz üzərində işləyir, tamaşanın uğurlu alınması üçün var qüvvələri ilə çalışırdılar. Y.Yulduz "Köhnə dudman" tamaşasının əvvəlinə proloq əlavə edərək maraqlı iş ortaya çıxarmışdı. Pantomim quruluşda göstərilən bu səhnədə – tül arxasında işıqların kölgəsi oynaşır, xan anbarına taxıl daşıyan yoxsul kəndlilərin üsyanı göstərilir, daha sonra tül pərdə qalxır və ölülər dəstəsinin qəribə hərəkətlərlə rəqsi nümayiş etdirilirdi. Bu mistik ölülər səhnəsi üçün 60 ədəd paltar tikdirilidiyi qeyd olunurdu. O zaman üçün yenilik hesab edilən bu səhnə əlbəttə tamaşaçı tərəfindən birmənalı qarşılanmadı. Mətbuatda tamaşa haqqında çıxan resenziyalarda yazılırdı: "Müqəddimədəki ölülər rəqsini camaat başa düşmədi və bu vaxtacan bildiyimiz Şərq fəlsəfəsinə uyğun gəlmədiyi üçün anlaşılması da çətindir. Bu nöqteyi-nəzərdən ölülər rəqsi bizcə artıqdır" (İbrahim, X., 1993, s. 61). Bu sayaq tənqidlərdən sonra tamaşanın növbəti nümayişlərində "ölülərin rəqsi" ixtisar edildi. Lakin tamaşa əsasən bəyənilmiş, demək olar ki, bütün aktyor heyətinin işi müsbət qiymətləndirilmişdi. Tamaşada rejissor işi nəinki yalnız aktyorların ifasında, həmçinin işıqla işdə də özünü göstərirdi. Projektor davamlı aktyoru izləyir əsas səhnələrdə işıq obrazın üzərinə cəmlənərək diqqətin başqa tərəfə yayınmasının qarşısını alırdı. "Vuruşma-çaxnaşma səhnəsində işıqlar enib-qalxır, çarpazlaşır,

vahiməli bir vəziyyət yaradırdı" (Kərimov, İ., 2002, s. 320). Tamaşanın istər bədii tərtibatında, istər aktyor ifasında Meyerhold məktəbinin izləri hiss olunurdu. Aktyorların həm daxili, həm xarici hərəkətlərinin birlikdə kompozisiya təşkil etdiyi "qaçaqlar" səhnəsi "demək olar ki, bütünlüklə" biomexanika prinsipinə əsaslanırdı. Sıldırım qayalar qurulmuş səhnədə qaçaqların birlikdə tez-tez yerlərini dəyişməsi, cəld hərəkət etməsi bu səhnəni daha canlı edirdi. Qaçaqların bu cürə sinxron, bəzən də qarışıq hərəkətləri səhnədəki qayalarla həmahənglik təşkil edir, mizanlar sanki özlüyündə qaya qədər sərt, əzəmətli təsir bağışlayırdı. İ.Kərimovun yazdığına görə, "Onun tamaşalarında aktyorlar müxtəlif hündür-çökək yerlərdə çıxış edər, tez-tez səhnənin bir yerindən başqa yerinə keçərdilər" (Kərimov, İ., 2002, s. 320).

Tamaşanın baş qəhrəmanı olan Pərviz xan obrazı çox mürəkkəb, bir o qədər də aktyor üçün zəngin materiala malik rol idi. Rza Təhmasib bu obrazı dərinliyi ilə duya bilmiş, onu bütün varlığı ilə hiss edərək özünün ən yadda qalan obrazlarından birini yaratmışdı. Aktyor öz xatirələrində Pərviz xan obrazını bu sözlərlə xatırlayır – "Etiraf etməliyəm ki, oynadığım rollar içərisində ən çox sevdiyim və yaradıcılıq həyatımda şübhəsiz qələbə hesab etdiyim rollardan biri Pərviz xan obrazıdır" (Təhmasib, T., 2005, s. 110). "Əgər gəncliyim qayıtsa, mən məmnuniyyətlə və böyük sevinc hissi ilə Pərviz xanı oynayaram" (Kərimov, İ., 2002, s. 322). Sənətkar xatirələrində bu obraz üzərində necə işlədiyindən, Pərviz xanın daxili və zahiri aləmini yaratmaq üçün apardığı axtarışlardan şövqlə bəhs edir: "Sinfi amiranlıq dövrünün son günlərini yaşayan yeni bir despot xarakteri yaratmaq lazım idi. Həyatımda gördüyüm, eşitdiyim, kitablarda oxuduğum hökmdarların surətlərini xəyalımda canlandırmağa çalışırdım. Daxilən eybəcər olan bu adamın xarici görkəmini, rəsmini tapmaq, daxili ilə birləşdirmək fikri məni təqib edirdi. Bu ağır yük altında bir gün səhər məşqə gəldim, özüm də bilmədən sövq-təbii ilə səhnəyə çıxdım. Mən o qədər Pərviz xanın düşüncələrinə qapılmışdım ki, özümü tamam unutmuşdum. Bir vaxt gördüm ki, ağzım tamam əyildi, gözüm əyildi. Eybəcər üz-gözlü Pərviz xan o gün səhnədə qurd yerişi ilə yeriməyə başladı. Amansız, qəddar adam hamıdan xəyanət gözləməyə, şübhələnməyə başladı. Bu da öz növbəsində yeni vərdişlər, yeni jestlər, hətta yeni baxışlar yaradırdı. O günkü məşq çox qəribə oldu. Y.Yulduz məni dayandırmadı, peşmanlatmadı, razılığını da bldirdi. Mən Pərviz xanı bütün varlığımla müdafiə edirdim, eyni zamanda bu onun ifşası idi. Bir aktyor kimi mən təhtəlşüur dərəcəsinə çatmışdım" (Təhmasib, T., 2005, s. 112). Aktyorun təkcə bu etirafları kifayət edir ki, biz Pərviz xan obrazını, onun daxili

aləminin eybəcərliyini hiss edək. Tamilla xanım atası haqqında xatirələrində qeyd edir ki, bu rolu R.Təhmasibə həvalə edəndə o, "bir tərəfdən maraqlı yaradıcılıq işi müjdəsi"nə sevinmişdisə, digər tərəfdən "Abbas Mirzə kimi premyer dura-dura bu boyda məhsuliyyətli rolu" ona verdiklərinə təəccüblənmişdi. O, bunu iki cür izah edirdi: "Abbas Mirzə cavan, tanımadığı rejissorla işləmək istəmir, bu isə aktyorun, onu çoxdan düşündürən milli rejissor kadrları probleminə belə laqeyd münasibət nöqteyi-nəzərindən, teatrın fədaisinin duyğularına, vətəndaşlıq heysiyyətinə toxunurdu. Odur ki, cavan rejissorun gəlişinə həm sevinirdi, həm də ürəyində onu müdafiə edirdi. Teatra ali təhsilli rejissor gəlmişdi. İkinci səbəb isə Pərviz xan mənfi obrazdır. Həmişə müsbət rollarda alqış qazanmış premyer öz "amplua"sından kənara çıxmağı lazım bilmirdi" (Təhmasib, T., 2005, s. 110). Burada bir haşiyə çıxaraq qeyd etməliyik ki, gənc rejissor Y.Yulduz ilə A.M.Şərifzadə hələ 1920-ci illərdən tanış idi. Rejissorun A.M.Şərifzadə haqqında yazdığı xatirələrdən məlum olur ki, N.Nərimanov adına fəhlə dram dərnəyində rejissorluq edən A.M.Şərifzadənin məşqlərin birindən sonra Y.Yulduzla arasında maraqlı söhbət baş tutur. Bu yazının teatr tariximiz üçün maraqlı fakt hesab etdiyimizdən olduğu kimi təqdim edirik: "Yusif qardaş, sən "Gənc işçi" qəzetinin ilk məsul katibi olmusan. Hələ ki, cümhuriyyətimizdə incəsənətə dair nə qəzet, nə də məcmuə nəşr edilmir. Necə bilirsən? Dərnəyimizin fəaliyyətini əks etdirmək və ümumiyyətlə incəsənəti təbliğ etmək məqsədilə bir məcmuə nəşrinə başlasan pis omaz ki? Mən soruşdum: Abbas qardaş, icazə olmadan məcmuə nəşrinə necə başlamaq olar? Bundan başqa axı kağız qıtlığıdır. Abas Mirzə: İcazə mən alaram, kağız da buraxarlar, sən isə məqalələrin yazılması haqqında düşün" (Kərimov, İ., 1963, s. 147). Söhbətin davamında isə Y.Yulduz bir neçə gün sonra onların birlikdə Ağababa Yusifzadənin (Baş mətbuat və nəşriyyat idarəsinin rəisi) yanına gedərək icazə və kağız məsələsini həll etməsindən, 1920-ci ildə Fəhlə dram kollektivinin ildönümü münasibəti ilə "Zəhmətkeş səhnəsi" jurnalının birinci nömrəsinin nəşrindən bəhs edir. Y.Yulduz A.Şərifzadəni böyük sənətkar, mehriban insan, əsl müəllim kimi xatırlayaraq sonda qeyd edir: "Sənətkarla tanışlığım, dostluğum ömrümün ən xoşbəxt çağları idi. Böyük sənət adamının yaradıcılığını onun insana layiq rəftarını yada salınca baş əyirəm" (Kərimov, İ., 1963, s. 148). Bu sətrlər göstərir ki, Y.Yulduz böyük sənətkara, onun sənətinə hər zaman hörmət ilə yanaşıb. Lakin rejissorun ilk illərdə Milli Dram Teatrında səhnəyə qoyduğu tamaşaların heç birində aktyor kimi A.M.Şərifzadının adına rast gəlmirik. Nə səbəbə dövrünün ən parlaq, şöhrətli aktyorunun bu illərdə

rejissor tərəfindən rola cəlb edilməməsi maraq doğurur. Lakin bu bizə əsassız, heç bir sübutu olmayan iddialar irəli sürməyə də haqq vermir.

"Köhnə dudman" böyük müvəffəqiyyətlə nümayiş etdirilsə də bəzi tənqidi məqalələrdə əsərin Azərbaycan tarixi ilə uzlaşmadığını, ölkəmizdə yerli əhalidən qul alıb-satmaq kimi halların olmadığını söyləyərək "ümumilikdə əsərin tamamilə qiymətsizliyini" (Kərimov, İ., 2002, s. 323) qeyd edənlər də var idi. Başqa bir məqalədə isə müəllif "Y.Yulduz yoldaş əsərə tam yeni bir məzmun vermiş, həm də çox gözəl mənalandırmışdır. Rejissorun böylə traktovka və quruluşu sayəsində əsərin hər hissəsi kamil, müstəqil bir şəkil almışdır" (İbrahimov, X., 1993, s. 61) fikirləri rejissor işini müsbət qiymətləndirirdi. İbrahim Xəlilin bu resenziyasından məlum olur ki, tamaşa iki hissədən ibarət olub və ilk gün sadəcə müqəddimə və birinci hissə oynanılıb. Professor İ.Rəhimli buna aydınlıq gətirərək yazır ki, oktyabrın 20-i mövsümün açılışı ilə əlaqədar olaraq iclas keçirilir və iclas uzun çəkdiyi üçün tamaşanın sadəcə birinci hissəsi oynanılır, bir neçə gün sonra isə ikinci hissə nümayiş edilir.

Tamaşanın rəssamı Müşeq Saqi, musiqi tərtibatçısı A.Mailyan, baletmeysteri Babacanova idi. Rolları: Pərviz xan – R.Təhmasib, Mirzə İsmayıl – Ə.Qurbanov, Rəcəb Kəndxuda –M.Ə.Vəlixanlı, Allahqulu – B.Cabbarzada, Bədəl – R.Əfqanlı, Gülsənəm - Gülbahar xanım, Sadıq – M.Sənani, Baş hərəm – Ə.Mammadova, İkinci hərəm – Panfiliya, Üçüncü hərəm – İsmət xanım, Dördüncü hərəm – C.Hüseynova, Beşinci hərəm – Z.Şahtaxtinskaya, Pərviz xanın qızı – Y.Olenskaya və b. ifa edirdi.

Fikirlərimizi ümumiləşdirsək deyə bilərik ki, rejissor yaratdığı bu səhnə əsəri ilə tamaşaçılara feodal dünyasının dağıldığını, yeni bir dünyanın yarandığını göstərməyi bacarmışdı. Gənc rejissor Teatrın ona həvalə etdiyi bu böyük tapşırığın öhdəsindən uğurla gələrək ona olan inamı doğrultmuşdu.

"Köhnə dudman" əsərinin uğurundan sonra teatr daha bir əsəri gənc rejissora həvalə etdi. 25.11.1927-ci ildə M.Qorkinin ədəbi fəaliyyətinin 35 illik yubileyi münasibəti ilə "Həyatın dibində" pyesi Y.Yulduz tərəfindən yenidən səhnəyə qoyuldu. İki il əvvəl A.Tuqanovun "Yurdsuz insanlar" adı ilə hazırladığı bu əsər yenə eyni adla təqdim edildi. Lakin rejissor bu dəfə əsərin Hacı İbrahim Qasımov tərəfindən edilmiş tərcüməsindən istifadə etdi. Bunun başlıca səbəbini əvvəlki quruluşda tərcümənin zəifliyində və bu barədə mətbuatda çıxan yazılarda görmək olar. "Türkcəsinin dilini bütünlüklə götürəcək olursaq ən əvvəl gözə çarpacaq qüsur burasındadır ki, "bir aktyor ilə dəmirçinin

arasında məsəlli bir tədafə" yoxdur" (İbrahimov, X., 1993, s. 50). Bu kimi tənqidlərdən əvvəlki tərcümənin aktyor ifası üçün nə qədər əlverişsiz olduğunu anlayırıq. Yeni tərcümədə isə tamaşanın ali məqsədinə uyğun gəlməyən bir sıra epizodlar, dialoqlar ixtisar edildi. Y.Yulduz ədəbi mətnin üzərində təmkinlə təhlil və araşdırmalar apardı. O, həmçinin tamaşanın aktyor heyətində də müəyyən dəyişiklilər etdi. Məs: A.Şərifzadə – İ.Hidayətzadə, Ə.Nəbi – R.Əfqanlı, S.Ruhulla – R.Təhmasib, A.Gəraybəyli – Ü.Rəcəb ilə əvəz edildi.

Bu iki fərqli quruluş haqqında dərc olunan yazılarda Y.Yulduzun quruluşu istər traktovka, istərsə də aktyor ifası baxımından daha çox diqqət çəkirdi. Əvvəlki quruluşda aktrisaların qrimi ilə obraz arasındakı təzad tənqid atəşinə tutularaq Moskva Bədaye teatrosunun aktyorlarının ifası ilə müqayisə edilirdi. "Çirkab içində o qədər kirşan, ənlik, o kimi sürmə heç də mühitə yaraşmayırdı. Heç birinin qrimi rus tipinə bənzəmiyordu. Böylə yazdığımız zaman rejissor həmən Moskva teatrosunun təcrübəsinə istinadla deyirdi: Öylə qrimlər temperament vermək üçündür. Biz temperament ilə bərabər rus tipi dəxi vermək lazım gəldiyini söylüyorduq. Bu gün bədii realizm şüarıyla oynayan Moskva aktyorlarının qrimi bunu bir daha sübut etmiş oldu" (İbrahimov, X., 1993, s. 52). A.Tuqanovun quruluşunda nəzərə çarpan digər məsələ isə aktyorların ifasındakı sönüklük, səhnələr arası rabitənin çatışmamazlığı idi. Resenziyalardan məlum olur ki, S.Ruhulla rolunu yaxşı bilmirdi və sufluyoru qışqırmağa vadar edirdi. Şərifzadənin isə saxta yəhudi ləhcəsindəki "baron şivəsi" oyunun təsirini pozurdu. Ümumilikdə götürsək bəzi tənqidçilər A.Tuqanovun quruluşunu uğurlu hesab etmir, hətta Qorkinin Azərbaycan səhnəsi üçün lazım olmadığını irəli sürürdülər. "Rejissor aktyorlara və səhnəyə daha artıq diqqət verməlidir. Aktyorlarımızı hələ özbaşına buraxmaq vaxtı gəlməmişdir" (İbrahimov, X., 1993, s. 51). Y.Yulduzun qurluşu barədə isə tənqid bunun əksi olaraq yazırdı: "Səhnədə Y.Yulduz yoldaşın quruluş üstündə çalışması ilə bərabər aktyor heyəti üzərində də çox işlədiyi hiss olunur...İki il əvvəl məzkur pyes türk səhnəsində oynanarkən tamaşaçılar əhvalatın harada vaqe olduğunu belə başa düşməyərək çoxları "hamam" hesab etmişdi. Bu dəfə quruluş sadə və çox gözəl idi. Ümumiyyətlə, yeni rejissorun fəaliyyəti səhnəni yeniləşdirmək, gözəlləşdirmək mənasında böyük ümidlər verməkdədir" (İbrahimov, X., 1993, s. 54).

Aktyorlardan Səlimbəyov (Bubof), M.Əliyev (Lovğa), M.Sənani (Vasqa), M.Mərdanov (Medvedev) və R.Təhmasibin (Aktyor) rollarını çox gözəl ifa etdikləri qeyd olunur. Lakin aktrisalardan Tanailidi (Qavaşina), Əzizə

(Vasilisa), Sona (Anna) rollarını yaxşı ifa etsələr də Cavahir (Nataşa) və Yeva (Nastya) zəif idilər. Bədii kefiyyətlərinə görə fərqlənən bu iki quruluşu müqayisə etsək, deyə bilərik ki, Y.Yulduz əsərin mübariz ruhunu, gələcəyə inam motivlərini daha aydın işləyərək əvvəlki işi təqlid etmədən orjinal bir əsər ortaya çıxarmışdı.

Gənc rejissor teatra gəldiyi iki il ərzində böyük şövq və həvəslə bir-birinin ardınca yeni əsərlər üzərində işləməyə davam edirdi. Rejissorun növbəti quruluşu debüt tamaşası olan "Köhnə dudman"ın davamı – Ə.Hqverdiyevin "Baba yurdunda" əsəri oldu. 02.03.1928-ci ildə premyerası olan bu tamaşada göstərilir ki, aradan iki əsr keçməsinə baxmayaraq Azərbaycan kəndlisinin vəziyyəti acınacaqlı olaraq qalmağa davam edir. Quruluş dəyişsə də hakimiyyət ehtirasından doğan zülm dəyişməz olaraq qalır. Bu iki əsərdə (dilogiyada) göstərilən Pərviz xan - Cahangir ağa, Şahmar bəy – İsgəndərzadə Azərbaycan kəndlilərinin son əsrlərdə keçirmiş olduqları tarixi yaşayışın canlı səhnələri və nümunəsidir. O dövrlərdə daha da qabarıqlaşan "realist" və "romantik" tamaşa bölgüləri teatrın yaradıcı heyəti arasında da müəyyən mənada bölgüyə səbəb olmuşdu. Rejissorun ərsəyə gətirdiyi bu quruluş isə səhnə tərtibatı və aktyor ifasına görə olduqca maraqlı idi. "Kompozisiya və tərtibatca romantik-monumental, ruhən realist-psixoloji" üslubda səhnələşdirilən əsərdə aktyor ifasında xüsusən Ə.Məmmədovanın canlandırdığı Tubu obrazı "əsil kəndli arvadı təsiri" bağışlayırdı. M.Ə.Vəlixanlı və Əli Qurbanovun yaratdığı obrazları haqqında isə "Xan qapısında darğa olmaq üçün "böyüyünün" ayağını öpmək, "xırdaları" tapdalamaq, öz "yerini şirin salmaq" üçün özgələri uçuruma atmaq kimi xüsusuiyyət və sifətlərin hamısı M.Vəlixanlıda var idi" (İbrahimov, X., 1993, s. 65) fikirləri söylənilirdi. Demək olar ki, tamaşanın yaradıcı heyəti üzərinə düşən işi layiqincə görmüş, tamaşanın uğuruna nail olmuşdu. Ə.Qurbanov əsərdə ağaların zülmünün minlərlə məzlumun qanının tökülməsinə səbəb olduğunu simvolizə edən "Həsən kişinin ölümü" səhnəsini belə xatırlayır: "Mən istəyirdim ki, bu səhnənin mənası, ölüm arxasında müəllifin vermək istədiyi fikir tamaşaçıya düzgün çatsın. Nəhayət belə qərara gəldim ki, təhqir edilmiş, namusu ləkələnmiş Həsən kişi özü ölümü ilə toy məclisini pozmalı və ağalara istintaq vaxtının yaxınlaşdığını xatırlatmalıdır" (Kərimov, İ., 2002, s. 324). Aktyorun olduqca təsirli ifasını tənqid çox uğurlu hesab edir, "onun bütün danışığı, hərəkəti, hər xırda çıxışı belə" (İbrahimov, X., 1993, s. 65) təklif olunmuş vəziyyət və roluna uyğun olduğunu xüsusi vurğulayırdı.

"Köhnə dudman", "Baba yurdunda" tamaşaları teatrın başlıca problemlərindən olan repertuar məsələsi və ideoloji yaradıcılıq problemlərini həll edə bilməsə də istər öz tərtibatına, istərsə də aktyor ifasının bitginliyinə görə müvəffəqiyyətli iş hesab etmək olardı.

Bu uğurlu tamaşalardan sonra Y.Yulduz ardıcıl olaraq, yaradıcılğı üçün yeni bir janra – komediyaya müraciət edir. Rejissor premyerası 09.04.1928-ci ildə baş tutan J.B.Molyerin "Zadəganlıqda meşşanlar" əsərini "Bağa qınını bəyənmir" adı ilə səhnəyə qoyur. Lakin tamaşa cəmi iki dəfə oynanılır.

Y.Yulduzun 1928-ci ildə hazırladığı digər komediya isə V.Katayevin "Dairənin mürəbbeləşməsi" (12.11.1928) əsəri oldu. Amma bu komediya da uğurlu alınmır. O dövrün mətbuatında tamaşalar haqqında məlumat çox az olduğundan bu səhnə əsərləri barəsində dolğun məlumat əldə etməkdə çətinlik çəkirik. Bəlkə də, buna görə tədqiqat işlərində bu tamaşalara ötəri yanaşmış, sadəcə yaradıcı heyəti sadalamaqla kifayətlənmişlər.

Komediyaların səhnələşdirildiyi illər əsasən teatrın yeni dramaturgiya uğrunda mübarizə apardığı, sovet ideologiyasının təbliğinə yönəlmiş əsərlərin axtarışında olduğu vaxtlar idi. 1928-ci ilin avqust ayında Azərbaycan K(b)P-nin Bakı komitəsində keçirdiyi teatr müşavirəsi buna təkan verən başlıca amillərdəndir. Müşavirənin əsas məqsədi teatrda müasirliyə doğru dönüşü qüvvətləndirmək, sosializm uğrunda mübarizədə partiya və xalqa yardım edən, ideya və siyasi cəhətdən dolğun tamaşalar yaratmaq idi. Bəhs etdiyimiz komediyaların ömrünün az olmasının bir səbəbi də bu hesab edilə bilərdi. Professor İ.Rəhimli bu tamaşaların səhnə taleyinə də açıqlıq gətirərək yazır: "Bu il "Sovet həyat tərzi", "Füqəra Dövlətin istəyi"... kimi ideoloji basqılar teatrın yarımçıq yaradıcılıq həyatına geniş miqyasda müdaxilə edirdi. "Təhlükəli", "ikibaşlı", "sovet quruluşuna kinayə edən" sözlər, fikirlər tərcümə pyeslərində də axtarılırdı. Xüsusən satirik komediyaların müəyyən mətləblərini yumşaltmaq məcburiyyətində qalan rejissor sözsüz ki, öz yozumunda istər-istəməz əsərin təhrifinə gətirib çıxarırdı. Buna görə də J.B.Molyerin "Bağa qınını bəyənməz", Fyodor Korşun "Dünya cənnəti və yaxud iki ərli arvad", Valentin Katayevin "Dairənin mürəbbeləşməsi" komedyalarının tamaşaları sönük çıxdı, azömürlü oldu" (Rəhimli, İ., 2002, s. 241).

Y.Yulduz 15.04.1929-cu ildə Viktor Lyubomirovun "Talış qızı" pyesini Rza Təhmasibin tərcüməsində tamaşaya qoydu. Lakin bu tamaşa da istənilən nəticəni vermədi, ömrü az oldu – cəmi beş dəfə oynanıldıqdan sonra repertuardan çıxarıldı. Tamaşa haqqında teatrşünas İ.Rəhimlinin "Y.Yulduzun

quruluşunda səliqə, təsviri zövq yerli-yerində olsa da, rejissorun mövzu-problematika yozumunda yenilik, aktyor ifalarında maraq doğuran təzəlik o qədər də nəzərə çarpmırdı" (Rəhimli, İ., 2002, s. 250) ifadələrindən qeyrisinə rast gəlinmir.

Ard-arda bu üç uğursuz tamaşanı nəzərə almasaq, deyə bilərik ki, rejissorun yaradıcılığının ilk illəri – 1927-1928-ci illər olduqca səmərəli keçib. Bu illərdə o, yalnız Milli Dram Teatrında deyil, həmçinin Dövlət Opera Teatrında da ciddi səylə işləyərək "Əsli və Kərəm", "Şah İsmayıl", "Leyli və Məcnun", "Aşıq Qərib" operalarına, "Məşədi İbad" operettasına quruluş verir. Teatrşünas İ.Rəhimli rejissorun az bir vaxta hər iki teatrda işləməyə can atmasını nəzərə alaraq qeyd edir ki, "Təəssüf doğuran, ürək göynədən o idi ki, uğurları qüsurlarından qat-qat çox olan rejissor üslubunun inkişafına bir qədər qeyri-ciddi yanaşan məhz Y.Yulduzun özü oldu. O, İstedadını çox yerə xərcləməyə can atması nəticəsində bir müddət böyük sənət qələbəsi səviyyəsinə yüksələn tamaşa hazırlaya bilmədi" (Rəhimli, İ., 2002, s. 232).

1930–cu ildə Teatr sovet cəmiyyəti ilə əlaqəsinin genişlənməsində, realizm prinsiplərinin dərindən mənimsənilməsində, həmçinin ideyaca zənginləşməsində mühüm rol oynayan K.Trenyovun "Lyubov Yarovaya" əsərinə müraciət etdi. Bu əsər 1926-cı ildə Malı teatrında böyük müvəffəqiyyətlə oynandlqdan sonra ölkə teatrlarının çoxunun repertuarına daxil edilmişdi. Azərbaycan teatrında pyes iki il ərzində "Düşmənlər" adı ilə iki fərqli quruluşda oynanıldı. 1929-cu ildə əsər A.Tuqanov, 1930-cu ildə isə "teatrla münasibətlərini yenidən "nizama salan"" (Rəhimli, İ., 2002, s. 260) Y.Yulduz tərəfindən səhnəyə qoyuldu. Teatr, tamaşanın ilk səhnə variantının uğurla qarşılanmasına baxmayaraq, bir sıra yaradıcı və ideya-estetik səbəblərlə onu kifayət qədər qənaətbəxş hesab etməmiş, nəticədə dövrün müasir ruhunu əks etdirən əsəri yeni və fərqli rejissor yozumunda yenidən səhnəyə qoyulmasına qərar vermişdi. Bu quruluşlar arasında demək olar ki, ciddi fərq yox idi. Bəlkə də bunun əsas səbəbi hər iki quruluşda eyni aktyorların kiçik dəyişikliklərlə eyni rolu ifa etməsi idi. Y.Yulduz aktyor heyətində cuzi dəyişiklik edərək M.Davudovanı (Lyubov Yrovaya) S.Hacıyeva və C.Hüseynova, Ü.Rəcəbi (V.Yarovay) R.Əfqanlı və S.Tağızadə ilə əvəz etmişdi. Lakin tənqid ikinci quruluşu əsərin ruhuna daha yaxın hesab edir, birinci quruluşdakı yersiz ixtisarlar, çıxarılmış səhnələr nəticəsində tamaşanın sönük hal aldığını vurğulayırdı. Professor C.Cəfərov tamaşaların bir-birindən əsasən tərtibat prinsipinə görə fərqləndiyini qeyd edirək yazırdı: "Y.Yulduzun qəbul etdiyi

prinsip daha şərti, lakin dinamik səhnələrin, xüsusilə kütləvi səhnələrin bədii həlli üçün daha əlverişli idi" (Cəfərov, C., 2023, s. 205).

Hər iki quruluşda aktyorların ifası daha çox diqqəti çəkərək tamaşanın əsas uğuru hesab edilirdi. Xüsusən Koşkin obrazı R.Təhmasibin Pərviz xan rolundan sonra ifa etdiyi ən qızğın, hərarətli obraz idi. R.Təhmasib rol üzərində işini belə xatırlayır: "Bu rolda mən özümü, öz istəklərimi, öz arzularımı, öz koşkinlik ideyamı, sovet quruluşundan umduğum öz əxlaq qayələrimi oynamışam" (İbrahimov, X., 1993, s. 134). Tamaşanın ən təsirli, qüvvətli səhnəsi Koşkinin Qryazanovu güllələdiyi epizod hesab edilir. "İlk tamaşadan bu səhnənin təsiri o qədər böyük idi ki, sonralar yalnız bu epizoda baxmağa gedən həvəskar tamaşaçılar dəstəsi var idi" (İbrahimov, X., 1993, s. 134). "Qryaznovu güllələməsi səhnəsi"ni R.Təhmasib belə xatırlayır - "Doğrusunu deyim ki, ürək dostumu soyğunçuluq üstə dəhlizə çıxarıb güllələdikdən sonra Panovanın yanına qayıdıb məktubun dalısını diktə eləmək üçün özümü ələ ala bilmirdim. Koşkinin-mənim varlığımda əzablı mübarizə gedirdi. Ancaq uzun pauza içərisində başı aşağı papiros eşib yandırdıqdan, bir neçə qullab çəkdikdən sonra özümə gələ bilirdim. Çəkdiyim papirosdan ağzıma doldurduğum tüstü ilə bərabər, boğazıma tıxanmış göz yaşlarımı da udmasaydım, mən səhnədə hər dəfə ağlaya bilərdim" (İbrahimov, X., 1993, s. 136). R.Təhmasibin dəqiqliklə qeyd etdiyi bu epizod bizə ümumilikdə tamaşanın atmosferini canlandırmağa imkan verir. Bəlkə də işinə bu qədər eşqlə, məhsuliyyətlə yanaşmağın nəticəsidir ki, tamaşa haqqında yazılan resenziyalarda "Pyesin sütununu təşkil edən komissar Koşkindir" fikirlərinə rast gəlirik.

Teatrşünas İ.Rəhimlinin qeydlərinə görə bir neçə nümayişdən sonra tamaşaya əlavə ifaçılar daxil edildi. Yeni aktyorların gəlişi nəticəsində Lyubov Yarovaya, Vixor Yarovaya və bəzi başqa obrazların üç ifaçısı oldu. Burada haqlı olaraq, əlavə ifaçılara nə gərək var idi, sualı yaranır. Lakin İ.Rəhimli ona da açıqlıq gətirərək yazır: "Yusif Yulduz o biri rejissorlardan fərqli olaraq bir rolu iki ifaçıya verməkdə baş ideyanı saxlamaqla üslub və səpki rəgarəngliyi yaratmağa çalışırdı. O, orjinal görünməyi xoşlayırdı" (Rəhimli, İ., 2002, s. 260).

1931-ci ildə Y.Yulduzun müraciət etdiyi növbəti əsər H.Cavidin "Knyaz" pyesi oldu. Bir il əvvəl A.Tuqanov tərəfindən səhnəyə qoyulan əsərdə Knyaz rolunun üç ifaçısı var idi. A.M.Şərifzadə, R.Təhmasib və R.Darablı. Yeni quruluşda isə rejissor nəinki Knyaz obrazını, hətta Solomon, Anton, Marqo, Şakro obrazlarının hər birini üç aktyora həvalə etmişdi. Rejissorun bu cəhdini İ.Rəhimli müsbət qiymətləndirərək yazır: "Bu həm aktyorların məşğulluğunu

təminatlandırırdı, həm də müxtəlif üslub və səpkiləri sınaqdan çıxarmağa, ifa rəngarəngliyi ilə tamaşanı müxtəlif estetik yörümda təqdim etməyə imkan yaradırdı...” (Rəhimli, İ., 2002, s. 270). Tamaşanın əsas ifaçısı R.Təhmasib (Knyaz) rol üzərində işləyərkən Ruhi xəstəliklər klinikasında müşahidələr apardığını qeyd edir. “Klinikanın professoru mənə ucaboylu, iri gövdəli bir adam göstərdi. O, koridorda qoyulmuş taxtın üstündə oturub: “Mən Vilhelməm” deyə bağırırdı. Gözünə götünən orduya komanda verirdi. Bu mənzərə mənə Knyazın psixoloji vəziyyətini, əhvalını anlamaqda kömək etdi” (Təhmasib, T., 2005, s. 139). Tamaşa zamanı da Knyaz son səhnədə stolun üstünə çıxaraq “Vilhelmi zaman etdi oyuncaq. Qeysər, ulu qeysər mənəm ancaq!”- deyə, bağırırdı. Qeyd etdiyimiz kimi, bu epizod aktyorun müşahidəsinin məhsulu idi. Tamaşanın musiqi tərtibatçısı Asan Rufatov, rəssamı Pavel Ryabçikov, rejissor müavini Məmməd Əlili olmuşdu. Əsas rolları: Knyaz – A.M.Şərifzadə, R.Təhmasib, R.Darablı, Jasmen – Q.Topuriya, Solomon – M.Əliyev, Ə.Qəmərli, Ə.Qurbanov, Anton- İ.Dağıstanlı, R.Əfqanlı, S.Tağızadə, Şakro - M.Şamxalov, İ.Osmanlı, M.Sənani, Marqo – P.Tanailidi ifa edirdi. Zəngin aktyor heyətinə baxmayaraq tamaşa müəyyən səbəblərə görə cəmi yeddi dəfə oynanıldı.

Y.Yulduz 1932-1933-cü ildə qısa müddətdə Naxçıvan və Ordubad Dövlət Dram teatrlarında baş rejissor işləmiş, müxtəlif quruluşlar vermişdir. 1933-1934-cü ilin əvvəlinə kimi isə Lənkəranda klub müdiri kimi fəaliyyət göstərmişdir. 1934-cü ildə Azərbaycan teatrında qüvvətli aktyor heyətinin formalaşmasına baxmayaraq “rejissor böhranı” (Cəfərov, C., 2023, s. 230) yaşanırdı. Tuqanovdan sonra gələn nə Lütse, nə də Varşavski baş rejissor kürsüsündə tab gətirə bilmədi. Teatr yenidən baş rejissor axtarışına çıxdı. Beləliklə 1934-cü ildə Y.Yulduz bu “kürsüyə” layiq görüldü. Böyük həvəslə işə başlayan rejissor A.Korneyçukun “31-43” əsərini “Eskadranın məhvi” adı ilə tamaşaya hazırladı. 1934-cü il noyabın 5-də əsər (bəzən "Donanmanın məhvi" də yazılıb) uğurla tamaşaçılara təqdim olundu. “Hələ məşq vaxtı Bakıda olub Yusif Yulduzun əsər üzərində yaradıcılıq axtarışlarına, mövzunun bədii həllinin rejissor yozumuna diqqətlə baxan dramaturq kollektivin işindən çox razı qaldığını bildirmişdi” (Rəhimli, İ., 2002, s.293). Tamaşanın rəssamı Nüsrət Fətullayev, musiqi tərtibatçısı Saveli Ayzen, rejissor assistenti Şəmsi Bədəlbəyli idi. Əsas rolları: Oksana – M.Davudova və Y. Olenskaya, Strijen – R.Təhmasib və İ.Dağıstanlı, Qayday – R.Əfqanlı və A.Şərifzadə, Leytenant Qorn – Ə.Ələkbərov və M.Şamxalov, Polkovnik Qobaxa – S.Səlimbəyov canlandırırdı.

Burada bir maraqlı məqamı qeyd etməliyik: "Premyera ərəfəsində teatrın rəhbərliyinin daxili əmri ilə Lope de Veqanın "Qoyun bulağı" komediyasının hazırlanması da ona həvalə olundu. Əmrdə o da yazılmışdı ki, "inqilabi mövzunun repertuarda möhkəmləndirilməsi" naminə Yusif Yulduz özünün "Lyubov Yarovaya" tamaşasını bərpa etsin" (Rəhimli, İ., 2002, s. 294). Lakin hansısa qüvvələrin təsiri nəticəsində "Eskadranın məhvi" tamaşasının premyerasından bir neçə gün sonra, 1934-cü il noyabrın 10-da Maarif Komissarlığının 191 saylı qərarı ilə "Sənət yardımı" adı altında Y.Yulduz Türkmənistana – "Natsmen" teatrına göndərildi. Bununla da rejissorun didərgin həyatı başlamış oldu. "Müddət 1935-ci il 1 aprelə qədər idi. Amma o da yazılmışdı ki, Yusif Yulduz dörd ay iyirmi günlük ezamiyyətdən qayıdanadək baş rejissor vəzifəsinə kimsə təyin olunmasın. O, özü ezamiyyət müddətində olanda da bu vəzifədə hesab edilsin. Yusif Yulduz Türkmənistanda yerini qızdırmamış, Bakıda noyabrın 22-də onun baş rejissorluqdan çıxarılmasına əmr (Nº-201) verildi" (Rəhimli, İ., 2002, s. 294). Bununla da istedadlı rejissorun Milli Dram Teatrındakı fəaliyyəti birdəfəlik bitdi və ona bu teatrda bir daha tamaşa hazırlamağa imkan verilmədi.

Bunu deməyi özümüzə borc bilirik ki, İ.Rəhimlidən əvvəl heç bir teatrşünas öz tədqiqatlarında bu faktları qeyd etməmiş, hətta Y.Yulduzun teatrdan getməsini rejissorun "Aktyorlarla işdə kifayət qədər təşkilati fəallıq və pedaqoji məharət nümayiş etdirməməsində" (Cəfərov, C., 2023, s. 231) görmüşlər. Daha sonra professor İ.İsrafilov da rejissorun teatrdan "gedişinə" diqqət çəkərək qeyd edir: "Bəlkə bu istedadlı rejissor Tuqanovların yerini dar etdiyindən, şər böhtana, dedi-qoduya hədəf olmuşdu?!" (İsrafilov, İ., 2022, s. 94). Maraqlı burasıdır ki, aktyorlarla işdə "səriştəsiz" kimi qələmə verilsə də biz sənətkarların xatirələrindən Y.Yulduzun rejissor kimi aktyorla nə qədər həvəslə və səmərəli işlədiyinin şahidi oluruq. Hətta rejissorun kino fəaliyyətinə nəzər salsaq, yenə də mənzərə dəyişmir. Sənət dostları rejissoru hər kəslə ünsiyyət qurmağı bacaran, işinə məhsuliyyət və hörmətlə yanaşan sənətkar kimi xatırlayırlar.

**Nəticə:** Adını teatr tariximizə ilk ali təhsilli peşəkar rejissor kimi yazdıran Yusif Yulduzun yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. Qısa, lakin məhsuldar yaradıcılığı ilə o, milli rejissor sənətinin formalaşması prosesində səmərəli işlər görmüş, yeni rejissor düşüncəsinin yaranmasında mühüm rol oynamışdır. Y.Yulduzun Milli Dram Teatrında işlədiyi dövr Azərbaycan teatrında rejissor sənətinin inkişafı baxımından həm başlanğıc, həm də

istiqamətverici mərhələ xarakteri daşıyır. Onun fəaliyyəti göstərir ki, 1920–30-cu illərdə bu sahə tədricən peşəkarlaşma istiqamətində inkişaf etmiş və yeni yanaşmaların formalaşmasına zəmin yaratmışdır. Bəzi uğursuzluqlara baxmayaraq, Y.Yulduzun yaradıcılığı ümumilikdə milli rejissor düşüncəsinin inkişafına əhəmiyyətli təsir göstərmiş və Azərbaycan teatr tarixində mühüm mərhələlərdən biri kimi dəyərləndirilmişdir.

## Ədəbiyyat siyahısı

1. Cəfərov, C. (2023). Azərbaycan teatrı (1873-1973). Bakı: Zərdabi nəşr.
2. İbrahim, X. (1993). Daşdan keçən istiqlal. Bakı: Yazıçı.
3. İsrafilov, İ. (2022). Azərbaycan rejissor sənəti tarixindən səhifələr. Bakı: Zərdabi nəşr.
4. Kərimov, İ. (1963). A.M.Şərifzadə haqqında xatirələr. Bakı: Azərbaycan teatr cəmiyyəti.
5. Kərimov, İ. (2002). Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı: Maarif nəşriyyatı.
6. Məmmədli, Q. (1983). Azərbaycan teatrının salnaməsi. II hissə (1920-1930). Bakı: Yazıçı.
7. Rəhimli, İ. (2002). Akademik Milli Dram Teatrı (Birinci kitab). Bakı: "QAPP-POLİQRAF" Korporasiyası.
8. Təhmasib, T. (2005). Rza Təhmasib (Elmi - publisistik, sənədli xatirə). Bakı: "MBM".

**Fidan Rzayeva Vasif gizi**

## THE PERIOD OF THE DIRECTOR YUSIF YULDUZ`S CREATIVE ACTIVITY IN THE TURKIC STATE DRAMA THEATRE AND IN THE ACADEMIC NATIONAL DRAMA THEATRE

**Summary:** In the 1920s, the absence of national professional stage directors in Azerbaijani theatre created a particular need for the development of this field. In this context, the creative activity of Yusif Yulduz (1905–1979), who graduated from the Leningrad Institute of Theatre Arts and began working at the National Drama Theatre in 1927 as the first national professional stage director, is of special significance, particularly during the period between 1927 and 1934. His productions in the Academic Theatre demonstrate that, in terms of actor-director collaboration, stage interpretation, mise-en-scène composition, and lighting solutions, he introduced innovative artistic approaches for his time.

Especially in the productions of Abdurrahim bey Hagverdiyev's plays "Old Dudman" ("Köhnə dudman") and "In the Fatherland" ("Baba yurdunda"), it is evident that the director attempted to combine a realist-psychological approach with a romantic-monumental stage design.

Actors' memoirs and contemporary reviews also confirm that Y. Yulduz prioritized working methods that emphasized the actor's inner creative potential. Although his activity in the National Drama Theatre was relatively short-lived, it played an important role in the formation of national directing thought and the development of stage directing in Azerbaijani theatre. From this perspective, the creative work of Y. Yulduz may be regarded as one of the significant guiding phenomena of the transitional stage in the history of Azerbaijani theatre.

**Key words:** Yusif Yulduz, theatre, stage director, actor, performance.

**Фидан Рзаева Васиф кызы**

## ТВОРЧЕСКИЙ ПЕРИОД РЕЖИССЕРА ЮСИФА ЮЛДУЗА В ГОСУДАРСТВЕННОМ ТУРКСКОМ АКАДЕМИЧЕСКОМ ДРАМАТИЧЕСКОМ ТЕАТРЕ И АЗЕРБАЙДЖАНСКОМ ГОСУДАРСТВЕННОМ ДРАМАТИЧЕСКОМ ТЕАТРЕ

**Резюме:** В 1920-е годы отсутствие национальных профессиональных режиссёрских кадров в азербайджанском театре требовало особого внимания к данной сфере. В такой период творческая деятельность Юсифа Юлдуза (1905–1979), обучавшегося в Ленинградском институте театрального искусства и начавшего свою деятельность в Национальном драматическом театре в 1927 году как первый национальный профессиональный режиссёр, имеет особое значение. Его постановки в Академическом театре показывают, что режиссёр с точки зрения принципов работы с актёром, сценической трактовки, мизансцены и светового решения обращался к новым творческим поискам своего времени. Особенно в произведениях А.Ахвердова «Старый дудман» и «В родном краю» наблюдается, что режиссёр пытался сочетать реалистико-психологический подход с романтически-монументальным сценическим оформлением.

Воспоминания актёров и рецензии того периода также подтверждают, что Юсиф Юлдуз отдавал предпочтение методу работы, который выдвигал

на первый план внутренние творческие возможности актёра. Его кратковременная деятельность в Национальном драматическом театре (1927–1934) оказала важное влияние на формирование национального режиссёрского мышления и развитие режиссёрского искусства в азербайджанском театре. В этом отношении творчество Юсифа Юлдуза можно оценивать, как одно из важных направляющих явлений переходного этапа в истории азербайджанского театра.

**Ключевые слова:** Юсиф Юлдуз, театр, режиссёр, актёр, спектакль.

**Məqalənin redaksiyaya daxilolma tarixi 26.05.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 30.05.2026**